# Musiqi dərsi qarşılıqlı yaradıcı pedaqoji proses kimi

**Dərsin təlim-tərbiyə prosesinin əsas forması kimi öyrənilməsi barədə pedaqoji nəzəriyyə tərəfindən böyük təcrübə toplanmışdır. Tarixi-nəzəri cəhətdən bu problem didaktika üzrə mütəxəssislərin, psixoloqların, müxtəlif humanitar bilik sahəsində çalışan mütəxəssislərin diqqət mərkəzindədir.**



Onlar qeyd edirlər ki, Y.A.Komenski tərəfindən əsası qoyulmuş sinif-dərs sisteminin əsasları bu gün də öz aktuallığını itirməmişdir. Lakin tamamilə adi haldır ki, dünya və ölkə təhsil sistemində tarixi-mədəni dəyişikliklər kontekstində dərsə qarşı olan tələblər dəyişirdi.

Dərsin təşkili üçün yeni formaların və üsulların axtarışı bu dövr üçün xarakterik olan təlim-tərbiyə prosesinin təşkilində və struktur formalarında müxtəlif yeniliklərin təbliğ edilməsi xüsusilə XX yüzillikdə özünü aydın biruzə vermişdir. Ötən yüzilliyin ortalarında eyni zamanda bir neçə didaktika məsələlərinin həllinə yönələn sintetik, birləşdirilmiş dərs növü aktual olur. Problemli tədris prinsipinin aktuallığı ilə bağlı tədrisdə problem situasiyalarının yaradılmasına və yaradıcı-axtarış, tədqiqat üsullarının yaradılmasına yönələn problemi- inkişaf dərs növü təsdiqlənməyə başlanmışdır. Alimlər, metodist-pedaqoqlar müxtəlif tədris səviyyələrinə, müxtəlif növ və tip tədris müəssisələrinə qarşı tətbiq edilən dərs konsepsiyalarını işləyib hazırlayırdılar.

Bununla yanaşı ifaçılıq sinfində musiqi dərsi musiqi tədris prosesinin təşkilinin xüsusi formasını təşkil edir, çünki burada ümumpedaqoji və xüsusi (musiqi-didaktika) didaktika qanunların və normativlərin inteqrasiyası baş verir. "Musiqi dərsi musiqi tədrisinin əsas forması kimi çıxış edir. Onun əsasında həm ümumpedaqoji tədris qanunları, həm də musiqi- yaradıcılıq bilik qanunları birləşir. Yəni musiqi dərsinin məzmunu və strukturu ümumi didaktika və musiqi-yaradıcılıq məqsəd, tələb və vəzifələrin birliyi deməkdir. Pedaqoji elmin dərsi müəyyən qaydada və rejimdə həyata keçirilən müəllim və şagirdin razılaşdırılmış fəaliyyətinin xarici ifadəsi kimi qiymətləndirdiyini nəzərə alsaq, onda musiqi-didaktika anlayışı musiqi dərsi tənzimlənən qaydada və rejimdə həyata keçirilən müəllimin və şagirdin musiqili yaradıcılıq fəaliyyəti deməkdir" (2, 138-139s.)

Musiqi dərsinin ümumdidaktika xarakteri ilk növbədə onun konkret məqsəd, funksiya və tələblərinin mövcudluğu ilə müəyyən edilir. Musiqi dərsinin sxemi ümumilikdə didaktikanın ümumi maddələrinə uyğundur: şagirdin ev tapşırığının nəticəsi yoxlanılır, sonra yeni musiqi materialı izah edilir və mənimsənilir, yeni ifa bacarığı emal edilir, musiqi bilik, bacarıq və qabiliyyətinin daha da mükəmməl öyrənilməsi üçün əsas yerlər və qaydalar müəyyən edilir, öyrənilmiş materialın möhkəmləndirilməsi üçün iş metodları müəyyən edilir, əldə edilmiş bacarıqlar əyani surətdə nümayiş etdirilir və yoxlanılır, şifahi qaydada öyrənilmiş dərs ümumiləşdirilir və dərk edilir və sonda şagirdin müstəqil ev tapşırığının həcmi və məqsədyönlülüyü müəyyən edilir. Musiqi dərsinə tələblər ümumdidaktika müddəaları ilə də üst-üstə düşür. Musiqi dərsində daima reallaşan tələblərə tədris, tərbiyəvi, inkişaf edən və digər tələblər aiddir. Ənənəvi və ümumdidaktika dərsi kimi musiqi dərsi onun dinamikasına tələb olunan bütün əsas tələblərin birliyi deməkdir. Bu didaktika uyğunluğu haqqında müasir musiqi-pedaqoji təcrübə və həmçinin görkəmli musiqi pedaqoqlarının təcrübəsi buna sübutdur.

Bununla yanaşı musiqi dərsi qeyri-adi, improvizə xarakterli yaradıcılıq prosesidir. Musiqi-ifaçılıq sinfində müvafiq növ fəaliyyətin xüsusiyyəti ilə şərtləndirilmiş dərsin bir sıra xarakterik xüsusiyyətləri mövcuddur. Göstərilən xüsusiyyətlər ondan ibarətdir ki, birinci ifa edən şagirdlərlə dərslər, bir qayda olaraq fərdi surətdə keçilir, yəni şagird və müəllim qarşılıqlı dialoqu şəraitində, "əsl pedaqoq öz üsul və vərdişlərindən deyil, hər şagirdə məxsus olan göstəricilərə uyğunlaşır və onun şəxsiyyətini meydana çıxarır" (6,s.18), ikincisi, tədris fəaliyyəti maksimal dərəcədə praktiki məsələlərin həlli ilə bağlıdır, o əsasən təcrübi xarakter daşıyır və məşğələlərin mahiyyəti musiqinin bilavasitə canlandırma-əks etdirmə prosesi deməkdir, yəni musiqi dərsi nəinki dərk etmə, həmçinin fəal xarakter daşıyır.

Musiqiçi şagirdə alınmış və dərk edilmiş bilikləri bilavasitə ifa fəaliyyətində əks etdirmək lazımdır. "Musiqini bir çoxları anlayır, lakin pianoçu onu ifa etməyi bacarmalıdır"(5, s.23). "Bütün tədris planı "bilmək-bacarmaq" prinsipi ilə sıx əlaqədə olmalıdır" (3, s.24). Musiqiçi pedaqoqun məqsədi şagirdlərdə ədəbi-intellektual potensialın formalaşması, musiqi-estetik şüurun və həmçinin xüsusi musiqi bacarıq kompleksinin inkişafı, lazımi peşəkar-texniki bacarıq və qabiliyyətlərin tərbiyələndirilməsidir. Lakin müasir pedaqoji təcrübə göstərir ki, bir çox musiqiçi pedaqoqlar musiqi dərslərinin təşkilində sərt, standart sxemləri istifadə edir, lakin musiqi dərslərinin yaradıcı, improvizə xarakteri nəzərə alınmır və musiqi dərslərinin yaradıcı potensialı tələbsiz qalır. Nəticədə musiqi-ifa sənəti şagirdlər tərəfindən musiqi əsərinin canlandırma (interpretasiya) prosesi kimi deyil, yalnız tədris prosesi kimi qəbul edilir.

Bizim fikrimizcə, ifaçılıq sinfində musiqi dərsinin keçirilməsinə xas olan iki neqativ tendensiya mövcuddur və onlar ikisi də bilavasitə musiqi pedaqoqun hərəkətləri ilə bağlıdır. Birinci halda o həddindən artıq aktivdir, dərk etməyərək və şagirdin fərdi xüsusiyyətləri ilə hesablaşmayaraq, təlim alandan daha çox təşəbbüs göstərir, çalışır ki, hər şeyi daha dəqiq göstərsin, ətraflı izah etsin və nəticədə onun bildirdiyi göstərişləri dəqiq yerinə yetirməyi tələb edir. Onun əsas, liderlik davranışı və mövqeyi şagird tərəfindən lazımi təşəbbüsü məhdudlaşdırır, onu passiv müşahidəçi ifaçı kimi formalaşdırır.

Öz pedaqoji fəaliyyətində o heç bir düzgünlük, şübhə, lazımi saydığı göstərişlərin danmazlığı ifa etməyən şəxsi nüfuzu və dürüstlüyünü rəhbər tutur. "Pedaqoqun nüfuzu avtoritarlığa əsaslanmalı deyil. Çünki avtoritar üsul şagirdin istedadının açıqlanmasına əsaslanmamalıdır. O, şagirdin mahiyyətini təşkil edən, onun təbiətini təşkil edən xüsusiyyətlərini boğur və üzə çıxarmağa qoymur. Şagird öz yolu ilə getməlidir və qətiyyən pedaqoqun avtoritar göstərişlərinə tabe olmamalıdır.

Belə pedaqoji münasibət nəticəsində güclü yaradıcılıq istedadlı musiqiçi-şagird hazır musiqi-ədəbi standartların itaətli ifaçısı olaraq tədricən öz aktivliyi və yaradıcılıq niyyətini boğur, musiqi-yaradıcı göstəriciləri az inkişaf etmiş şagird isə öz müəlliminin ədəbi zövqünə və iradəsinə tabe olaraq onları ümumiyyətlə yaratmır. "Şagirdlə işləyərkən hazır reseptlərdən, köməkdən çəkinmək lazımdır. Müəllimin vəzifəsi uşaqda təşəbbüsü yaratmaqdan, onda müstəqil axtarışa can atmaq hisslərini möhkəmləndirməkdən, düzgün qərarları özünün axtarıb tapmağa can atmaq kimi hissləri oyatmaqdan ibarətdir".

İkinci halda musiqiçi müəllim passiv müşahidəçi rolunda çıxış edərək və yalnız şagirdin istedadına arxalanaraq dərsi abstrakt pedaqoji "konsilium" şək-

lində keçir. Bu halda hətta musiqi qabiliyyətinin mövcudluğu nəzərə alınsa müəllim tərəfindən lazımi və təşkil olunmuş rəhbərlik olmadıqda şagirdin müvəffəqiyyətli və intensiv şəkildə musiqi qabiliyyətinin inkişafı üçün kifayət etmir. Musiqi incəsənətində əsl bacarıq elmdə olduğu kimi gərgin, çətin analitik iş nəticəsində əldə edilir. Musiqi əsərinin intuisiya-emosional cəhətdən anlaşılmasının rolu böyükdür, lakin o onun dərk edilməsində rasional mərhələnin rolunu azaltmır və azalda da bilməz. Əslində məhz ifa işində intuisiya-emosional sintez lazımdır.

Həm birinci, həm də ikinci halda hər iki tendensiyalar şagirdin musiqi inkişafına eyni, mənfi nəticələrlə çıxış edir.

İfa sinfində musiqi dərsi, onun forması, dinamikası, məzmunu ilk növbədə musiqi-ifa incəsənətinin öz mahiyyətinin yaradıcı xüsusiyyətlərindən, şagirdin şəxsiyyətindən və onun ifa etdiyi musiqi əsərinin ədəbi nadirliyindən asılıdır. Bütün bu faktorlar ifaçılıq sinfində xüsusi yaradıcı atmosferin labüdlüyündən asılıdır. Səsləndirmə prosesi, musiqi əsərinin ikinci dəfə doğulması müəyyən edilmiş əlverişli və dəyişilməz qayda və reseptlər sisteminə sığmır.

**"Metodika-deduktiv və həmçinin eksperimental surətdə əldə edilmiş idrakdır; onun mənbəyi- müəyyən iradə, yaradıcının xarakteri və ideyalı dünya baxışının müəyyən etdiyi məlum məqsədə durmadan can atmaqdır. Əsasən resepturanı, ən düzgün və yoxlanılmış möhkəm qaydaları verən xrestomatiya metodikası real həyatda inkişaf, düşünülmə, dəqiqləşdirmə, canlandırma, bir sözlə dialektik dəyişikliklərlə toqquşduqda həmişə hər dəqiqə yalnız primitiv, ilkin, sadələşdirilmiş metodika olaraq gələcəkdir. Şagirdə qarşı müxtəlif təsir üsulları daim, dəyişən sonsuz pedaqoji təcrübə, məqsədə dayanmadan saxlanılması istiqaməti tamamilə deyilənləri təsdiq edir".**

**● Cəmilə CABBAROVA**